# XX əsrin ən böyük faciəsi

## Xocalı soyqırımı qurbanlarının xatirəsi ehtiramla yad olunub

Qəbələdə Xocalı soyqırımının iyirmi yeddinci ildönümünə həsr olunmuş anım tədbiri keçirilib.

Tədbir iştirakçıları əvvəlcə mədəniyyət mərkəzində məktəblilərin əl işlərindən hazırlanan rəsm sərgisinə baxıblar.



Rəsmi hissədə Xocalı soyqırımı zamanı qətlə yetirilmiş həmvətənlərimizin və Vətən uğrunda canlarını fəda etmiş bütün şəhidlərimizin əziz xatirəsi ehtiramla yad edilib.

Mərasimi açan rayon icra hakimiyyəti başçısının müavini Ətayə Osmanova erməni silahlı dəstələrinin xalqımıza qarşı törətdiyi cinayətin ağır nəticələri barədə danışıb.

Sonra Kürd kənd tam orta məktəbin müəllimi Ümüdvar Həsənov ermənilərin 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalıda həyata keçirdikləri amansız qətliam barədə ətraflı məlumat verib.

O, Xocalı soyqırımının ermənilər tərəfindən tarixən azərbaycanlılara, bəşəriyyətə, ümumən insanlığa qarşı törədilən və davamlı olaraq həyata keçirilən cinayətlərin, etnik təmizləmə və soyqırımı siyasətinin ən qanlı səhifəsi olduğunu bildirib.

Tədbirdə rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev çıxış edərək, Xocalı faciəsinin erməni millətçilərinin Azərbaycan xalqına qarşı yürütdüyü soyqırımı və etnik təmizləmə siyasətinin tərkib hissəsi olduğunu bildirib.



RİH-nin başçısı vurğulayıb ki, o zamankı Azərbaycan hakimiyyəti bu dəhşətli hadisəyə



siyasi qiymətin verilməsi, qanlı qırğın barədə obyektiv məlumatların dünya ictimaiyyətinə çatdırılması istiqamətində heç bir iş görməyib. Lakin Azərbaycan xalqının xilaskarı, ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra bu qanlı faciəyə ilk dəfə olaraq siyasi-hüquqi qiymət verilib. 1994-cü ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan parlamenti 26 fevralı Xocalı Soyqırımı Günü kimi qəbul edib.

O, çıxışında dünyanın bir çox dövlətlərinin Xocalı faciəsini soyqırımı kimi tanıdığını, 17 may 2008-ci ildə İslam Əməkdaşlıq Təşkilatının və İSESKO-nun toplantısında Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə "Xocalıya Ədalət - Qarabağa Azadlıq" kampaniyasının başlanıldığını və 26 fevralın İƏT-ə üzv ölkələrdə "Xatirə Günü" kimi qeyd olunmasının qərara alındığını bildirib.

Anım tədbirində çıxış edən Xocalı məcburi köçkünü Kamal Məmmədov və başqaları erməni millətçilərinin xalqımıza qarşı zaman-zaman həyata keçirdikləri soyqırımı siyasətindən bəhs edib, Xocalı faciəsinin acı nəticələrini konkret faktlarla diqqətə çatdırıblar.

Tədbir rayon uşaq-gənclər inkişaf mərkəzinin hazırladığı ədəbi-bədii kompozisiya ilə davam etdirilib.

**"Qəbələ"**

**İlkin Vəlizadə (foto).**

## O qanlı gecədən 27 il ötür

Xalqımızın tarixinə qanla yazılan Xocalı faciəsinin iyirmi yeddinci ildönümü ilə bağlı Heydər Əliyev Mərkəzində tədbir keçirilmişdir.

Tədbirdə Xocalı şəhidlərinin əziz xatirələri bir dəqiqəlik sükutla yad edilmişdir.

Mərkəzin əməkdaşı Mahirə Kərimova çıxışında erməni vandalları tərəfindən Xocalı şəhərində törədilən qırğından, dinc əhaliyə amansız divan tutulmasından geniş danışmışdır. Qeyd olunmuşdur ki, faciə ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, bu qanlı qətliama ilk dəfə olaraq obyektiv hüquqi qiymətin verilməsi və Azərbaycan parlamentinin 26 fevralı Xocalı Soyqırımı Günü kimi elan etməsi istiqamətində ulu öndər Heydər Əliyevin əvəzolunmaz xidmətləri olmuşdur. Bildirilmişdir ki, Xocalı soyqırımı iki yüz ildən çox müddətdə təcavüzkar erməni millətçilərinin xalqımıza qarşı apardığı etnik təmizləmə və soyqırımı siyasətinin qanlı səhifəsidir.

Bildirilib ki, bir sıra ölkələrin parlamentlərində Xocalı soyqırımı ilə bağlı müvafiq qətnamələr qəbul edilib və hər il faciənin ildönümü tarixlərində dünyanın bir çox ölkələrində Xocalı faciəsi ilə əlaqədar tədbirlər keçirilir. O, qeyd edib ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə təşkil olunan "Xocalıya ədalət" kampaniyasının bu qanlı qırğının dünya xalqlarına çatdırılmasında müstəsna xidmətləri vardır.

**Kəmalə QASIMOVA,**
**mərkəzin işçisi.**

## Xocalı faciəsi uşaqların gözü ilə

Xocalı faciəsinin 27-ci ildönümünə həsr olunan "Xocalı faciəsi uşaqların gözü ilə" mövzusunda rəsm müsabiqəsinə yekun vurulub.

Rayon gənclər və idman idarəsinin təşkilatçılığı, Qəbələ Mədəniyyət Mərkəzinin, dövlət rəsm qalereyasının və incəsənət məktəbinin dəstəyi ilə keçi-



rilən müsabiqədə 40-dək yerli gənc rəssamın 100 əsəri nümayiş etdirilib.

Sərginin bağlanış mərasimində rayon gənclər və idman idarəsinin rəisi Fəxri Soltanov, incəsənət məktəbinin direktoru Əhməd Qəndiyev, mədəniyyət mərkəzinin metodisti Anar Rüstəmli və başqaları çıxış edərək, Xocalı faciəsinin təkcə Azərbaycan xalqına qarşı deyil, bütövlükdə bəşəriyyətə qarşı törədilmiş dəhşətli cinayət olduğunu bildiriblər.

Qeyd olunub ki, müsabiqənin keçirilməsində əsas məqsədi Xocalı faciəsinin acı nəticələrini uşaq, yeniyetmə və gənclərin yaradıcılıq təxəyyülü vasitəsilə tamaşaçılara çatdırmaq, eyni zamanda, onların bədii yaradıcılıq potensialını üzə çıxarmaq və inkişaf etdirməkdir.

Münsiflər heyətinin rəyinə əsasən Ruhəngiz Babayeva müsabiqənin qalibi adını qazanıb. Ləman Əliyeva və Zərifə Rəcəbova ikinci, Aytən Qədirova, Fidan Həşimli və Banuçiçək Şəfiyeva üçüncü yeri tutublar.

Müsabiqənin qalibləri diplom və xatirə hədiyyələri ilə, digər iştirakçılar isə fəxri fərmanlarla mükafatlandırılıblar.

**"Qəbələ"**